# Azərbaycan humanizm prinsipinə sadiqdir

Azərbaycan xalqının humanizmi, qonaqpərvərliyi dünyada bilinən və təqdirlə hər zaman dilə gətirilən gerçəklikdir. İstər respublikamıza turist kimi, istərsə də hansısa beynəlxalq tədbirdə iştirak üçün üz tutan əcnəbi vətəndaşların Azərbaycanla bağlı təəssüratlarında birmənalı olaraq xalqımıza xas mehribançılıq, gülərüzlük, dilindən, dinindən, cinsindən asılı olmayaraq bütün insanlara eyni bərabərdə yanaşma kimi ali mənəvi dəyərlər xüsusi vurğulanır.

Bu baxımdan ötən ilin noyabrında Bakıda keçirilən dünyanın ən nəhəng iqlim tədbiri COP29-un iştirakçılarını ölkəmizin multikultural, tolerant mühitinin heyrətə salması da təəccüblü deyildi. Tam mübaliğəsiz bildirək ki, vətənimizdə min illərdir formalaşaraq bu günümüzə gələn multikultural, tolerantlıq mühitinə hazırkı dövrdə demək olar ki, dünyanın heç bir yerində rast gəlmək mümkün deyil.

BMT TŞ-nin qətnamələrini öz gücünə həll edərək ərazi bütövlüyünü və suverenliyini tam təmin edən Azərbaycan bölgədə əsl təhlükəsizlik adasına çevrilib. Bu baxımdan İran və İsrail arasında baş verən münaqişə ilə əlaqədar İranda qalan əcnəbi vətəndaşların təxliyə üçün seçdikləri ilk ölkənin Azərbaycan olması da təsadüfi deyil. Çünki həmin əcnəbi vətəndaşlar əmindirlər ki, humanizm dəyərlərinin yüksək şəkildə təşəkkül tapdığı Azərbaycan təxliyə üçün ən təhlükəsiz ölkədir.

## Böyük ürəyə sahib xalq

30 il ərzində ərazisinin 20 faizi işğal altında olan və bir milyondan çox qaçqın və məcburi köçkünə malik Azərbaycan torpaqlarını düşməndən təmizləyəndə də, suverenliyini təmin edəndə də bir an olsun belə humanizm prinsiplərindən uzaq düşmədi.

2020-ci il Vətən müharibəsində Azərbaycan Ermənistandan fərqli olaraq heç bir halda mülki yaşayış obyektlərini nişan götürmədi, qisasını döyüş meydanında aldı. Buna görə idi ki, müharibədə bir mülki ermənin belə burnu qanamadı. Ancaq 44 günlük müharibə zamanı Ermənistan Bərdəni, Tərtəri, Gəncəni, döyüş meydanından yüzlərlə kilometr uzaqda yerləşən digər şəhərlərimizi raket hədəfinə çevirərək terror törətməklə mənfur xislətini bir daha göstərdi.

Eləcə də lokal xarakterli antiterror tədbirləri zamanı dünya bir daha Azərbaycanın humanizminə şahidlik etdi. 2023-cü ilin sentyabrında Qarabağda keçirilən antiterror tədbirlərində Azərbaycan əsgərlərinin yaralı erməni hərbçilərə, o cümlədən sakinlərə yardım etmələri ilə bağlı xeyli videogörüntülər yayıldı. Belə görüntülərin birində hərbçilərimizin lokal xarakterli antiterror tədbirləri zamanı yaralanan erməni əsgərinin həyatını xilas etməsi əks olunmuşdu. Sentyabrın 21-də Xocavənd rayonu ərazisində erməni qadın Azərbaycan Ordusunun hərbi qulluqçularına yaxınlaşaraq onlardan yardım istəmiş və hərbi qulluqçularımız dərhal ona kömək göstərmişdilər.

Həmin dövrdə Qarabağdakı erməni-əsilli insanlar özlərinə aid əşyaları götürərək heç bir təhlükə hiss etmədən, rahat şəkildə ölkəmizi tərk etdilər. O vaxt Azərbaycan polisinin həmin insanlara ərzaq təqdim etməsi ilə bağlı videogörüntülər yenə də beynəlxalq ictimaiyyətdə böyük maraq yaratdı.

Azərbaycan sərgilədiyi humanizm davranışları ilə bir daha sübut etdi ki, ölkəmiz düşməninə belə mərhəmət etməyi bacaran böyük ürəyə sahib xalqın məmləkətidir.



## Azərbaycana təşəkkür edirlər

Bəzi xarici dövlətlər Azərbaycan hökumətinə müraciət edərək İranda olan vətəndaşlarının təxliyəsi üçün yardım istəyib. Azərbaycan dövləti humanitar prinsipləri rəhbər tutaraq həmin şəxslərin təxliyəsi üçün şərait yaradır.

İrandan digər ölkələrin vətəndaşları olan əcnəbilər Azərbaycan ərazisi vasitəsilə təxliyə olunurlar. Yaranmış böhranlı vəziyyətlə əlaqədar Astara Buraxılış Məntəqəsi 24 saat fasiləsiz rejimdə fəaliyyət göstərir. Azərbaycan hökuməti təxliyə olunan əcnəbiləri daşımaq üçün əraziyə avtobuslar göndərib. Bundan başqa sərhəd-keçid məntəqəsinə təcili tibbi yardım briqadası ezam olunub. Təxliyə olunan şəxslər üçün çay süfrəsi hazırlanıb.

İndiyə qədər ABŞ, Çin, İtaliya, Böyük Britaniya, Belçika, Portuqaliya, Xorvatiya, Şri-Lanka, Pakistan, Rusiya, Kanada, İndoneziya, Avstraliya, Belarus, Tacikistan, Qazaxıstan və digər ölkələrin vətəndaşları Astara Buraxılış Məntəqəsi vasitəsilə təxliyə olunub.

İyunun 23-də 10 nəfərdən artıq ABŞ və digər xarici ölkə vətəndaşları Azərbaycana keçib. Amerika vətəndaşı Aborzi Aborinq bildirib ki, sərhəddə keçid üçün rahat şərait yaradılıb: "Azərbaycan dövlətinə təxliyə üçün öz təşəkkürümü bildirirəm".

Azərbaycanın yüksəksəviyyəli humanizm və qonaqpərvərlik nümayiş etdirərək münaqişə bölgəsindən insanları təxliyə etməsi beynəlxalq ictimaiyyət tərəfindən də razılıq və minnətdarlıq hissləri ilə qarşılanır. Müxtəlif ölkələr rəsmi səviyyədə ölkəmizə təşəkkürlərini bildirirlər.

Pakistanın xarici işlər naziri Məhəmməd İshaq Dar ölkəsinin 125 vətəndaşının İrandan təxliyəsinə göstərdiyi dəstəyə görə Azərbaycana minnətdarlıq edib.

Bu barədə nazir "X" hesabında yazıb: "Pakistan vətəndaşlarını İrandan qəbul etdikləri üçün Azərbaycan hökumətinə ürəkdən təşəkkür edirəm".

Almaniyanın Azərbaycandakı səfirliyinin "X" hesabında da bu məsələyə toxunulub: "Azərbaycan hakimiyyətinin Bakıda və sərhəddə göstərdiyi bütün dəstəyə görə minnətdarıq".

Niderland da öz vətəndaşlarının İrandan təxliyəsinə köməyə görə Azərbaycana təşəkkür edib. Bu barədə Niderlandın Azərbaycandakı səfirliyinin "X" hesabındakı paylaşımında deyilir: "İrandan Niderland vətəndaşlarının Astara sərhəd-keçid məntəqəsi vasitəsilə təhlükəsiz tranzitinin asanlaşdırılmasında göstərdiyi davamlı dəstəyə görə Azərbaycan hakimiyyətinə səmimi minnətdarlığımızı bildiririk".

## Ölkəmizin əhəmiyyətli rolu təqdir olunur

İyunun 20-də Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovla Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas arasında telefon danışığı zamanı Avropa İttifaqı üzv ölkələrinin vətəndaşları daxil olmaqla, xarici ölkə vətəndaşlarının İrandan təxliyəsində Azərbaycanın oynadığı əhəmiyyətli rol təqdir olunub.

Həmçinin Kanadanın xarici işlər naziri Anita Anand telefon danışığı zamanı Azərbaycan XİN rəhbərinə ölkəsinin vətəndaşlarının İrandan təxliyəsi istiqamətində ölkəmiz tərəfindən göstərilən dəstəyə görə təşəkkür edib.

Avstraliyanın xarici işlər naziri Penni Vonq ilə Ceyhun Bayramov arasında telefon danışığı zamanı sözügedən ölkənin XİN rəhbəri ölkəsinin vətəndaşlarının İrandan təxliyəsi planları barədə məlumat verib və Azərbaycan tərəfindən göstərilən dəstəyə görə təşəkkür edib.

İslam Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının İstanbul şəhərində keçirilən 51-ci sessiyası çərçivəsində İndoneziya Respublikasının xarici işlər naziri Suqiono ilə Azərbaycan XİN başçısı Ceyhun Bayramov görüşüb. İndoneziya tərəfi vətəndaşlarının İrandan təxliyəsinin asanlaşdırılmasına görə Azərbaycana minnətdarlığını bildirib.

Rəsmi Moskva da Rusiya vətəndaşlarının İrandan təxliyəsi ilə bağlı Azərbaycan tərəfinə minnətdarlığını bildirib. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov açıqlamasında deyib ki, rusiyalıların İrandan təxliyəsi Azərbaycanla sərhəddə yerləşən keçid məntəqələri vasitəsilə həyata keçirilir: "Bakı təxliyə üçün əlverişli şərait yaradıb. Buna görə Moskva Azərbaycan tərəfinə dərin təşəkkürünü bildirir".

İrandan təxliyə olunanlar arasında meksikalı diplomatlar da yer alıb. Yaşanan hadisələr və təhlükəsizlik səbəbindən diplomatik heyət Azərbaycanın dəstəyi ilə İranı tərk edib.

Meksikalı diplomatlar təxliyə sonrası Azərbaycan hökumətinə və xalqına təşəkkürünü bildirib.

Gətirdiyimiz bütün bu nümunələrdən də göründüyü kimi, humanizm Azərbaycan xalqı üçün ən ali dəyərlərin başında gəlir. Çətində, darda olana əl uzatmaq, köməyə ehtiyacı olana dərhal dəstək, yardım göstəmək azərbaycanlıların genetik kod yaddaşı, dövlətimizin prioritet siyasətidir. Bu məsələ ilə bağlı çoxsaylı nümunələr göstərə bilərik, amma onlardan təkcə birinə diqqət edək: Azərbaycan dövləti COVID-19 pandemiyası dövründə peyvənd millətçiliyinə qarşı çıxaraq, ehtiyacı olan ölkələrə maddi yardımlar göstərərək də dünyaya örnək humanizmini nümayiş etdirib.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 25 iyun (№129).- S.11.